# MİLLİLİKDƏN ÜMUMBƏŞƏRİ SƏVİYYƏYƏ YÜKSƏLƏN POETİK TƏFƏKKÜR

Yeganə HÜSEYNOVA*

**Xülasə:** Xalqın tarixi taleyi, bu taleyi özündə, mübarizəsində əks etdirən insanların xarakteri və əməlləri, nəcib insani xüsusiyyətləri Bəxtiyar Vahabzadə yaradıcılığının əsas fəlsəfi-estetik düşüncəsidir. B.Vahabzadənin "Özümüzü kəsən qılınc" əsəri mövzu cəhətdən tarixi və müasir həyatla bağlı olan pyeslər silsiləsinə şamil edilə bilər. Burada tarixilik və müasirlik vəhdət halında çıxış edir. Bu da böyük şairimizin milli dramaturgiyanın zəngin ənənələrini yaşatmaq əzmini göstərir. "Özümüzü kəsən qılınc"əsəri Bəxtiyar Vahabzadənin türk birliyinə səsləyən ideyalarının çağırışıdır. Əsərin üstün və ümdə cəhətlərindən biri budur ki, şair burada tarixi müasirlik qədər yaşada bilir. Ümumiyyətlə, şairin müraciət etdiyi mövzular, problemlər çox geniş, əhatəli və cəmiyyət yönümlüdür. Milli kimlik və milli kimliyə qayıdış Bəxtiyar Vahabzadə yaradıcılığının əsas xüsusiyyətlərindən biridir.

***Açar sözlər:*** *İstiqlal, azadlıq, vətən, xalq, milli dəyər.*

**Poetik Thinking Rising From the National to the Universal Level**

**Abstract:** The fate of the character and deeds and noble human qualities are reflected in the historical destiny of the people, their struggle, in which people Bakhtiyar Vahabzadeh based philosophical-aesthetic thinking. On historical and modern life Beyond work the "sword punishing Ourselves" in a series of related pieces can be used. There is a single, historicity and modernity. It shows the determination to preserve the rich traditions of the azerbaijani national drama, the great poet. "The sword punishing ourselves "əsəri Bakhtiyar Vahabzadeh calling the ideas of turkic unity is a challenge. One of the advantages of the product is that the poet lived here before in the history of modernity. Bakhtiyar Vahabzadeh, who was prominent poet of the 20th century Azerbaijani poetry also writed the work "The Sword cutting Ourselves" which is about the heads of state of Göyturks, known as the mighty state centuries ago and which is new victory of contemporary Azerbaijani drama where the subject and problems of the poet are very broad and addressed to the society.

***Key Words:*** *independence, freedom, homeland, nation, national value.*

## Giriş

Azərbaycan ədəbiyyatının müstəqil inkişafı onun dünya xalqları ilə ədəbi əlaqələr yarada bilməsinə, bu xalqlar arasında öz milli dəyərlərini, adət-ənənələrini təbliğ etməyə böyük imkanlar yaratdı. Ədəbiyyatşünaslığımızın qarşısında duran ən mühüm məsələlərdən biri də Azərbaycan ədəbiyyatı ilə dünya ədəbiyyatının ədəbi ənənələrini genişləndirmək, tədqiq etmək və onları qarşılıqlı kontekstdə araşdırmaqdır.

Təsadüfi deyildir ki, milli ictimai fikir tariximiz qədim və orta əsrlərdə, eləcə də yeni və müasir dövrdə həmişə dünya xalqları ədəbiyyatı ilə birgə olmuş, ədəbi əlaqələr xalqımızın taleyində önəmli rol oynamışdır. Hələ qədim dövrlərdən başlayaraq tarix boyunca Azərbaycan xalqının Şərq xalqları ilə əlaqəsi başqa xalqlara nisbətən daha sıx və daha yaxın olmuşdur. Odur ki, dünya ictimai fikir tarixində baş verən proseslərin hərtərəfli dərki üçün, ümumbəşəri problemlərin ayrı-ayrı ədəbiyyatlarda əksi məsələlərinin müqayisəli şəkildə təhlili və tədqiqi üçün ədəbi əlaqələrin olması xüsusi əhəmiyyət kəsb edir. Ta qədim zamanlardan başlayaraq xalqlar və millətlər arasında ədəbi-mədəni münasibətlərdən bu və ya digər formalarında istifadə olunmuş, hətta dövlətlərarası münasibətlərin tənzimlənməsində bu əlaqələr bəzən də dayaq rolunu oynamışdır. Ona görə də bu əlaqələr millətlərarası münasibətlərin tənzimlənməsinə, ədəbi və mədəni inkişafın təzahüründə önəmli rola malikdir. Günümüz üçün vacib olan məsələlərdən biri də bu əlaqələri qoruyub saxlamaqla yanaşı, onları sivil yollarla daha da inkişaf etdirib, təkmilləşdirməkdir.

Bu baxımdan XX əsr Azərbaycan poeziyasının dünya ədəbiyyatşünaslıqda öyrənilməsi təsadüfi deyildir. Azərbaycan şeirinin orijinal poetik təfəkkürə və çoxşaxəli yaradıcılıq imkanlarına malik olan nümayəndələrindən biri olan Xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığına maraq heç də təsadüfi deyildir. Şair bütün yaradıcılığı boyu ölkədə və dünyada baş verən hadisələrə fəal vətəndaş və sənətkar mövqeyindən yanaşmışdır. Siyasi sistemin təzyiqinə baxmayaraq, Bəxtiyar Vahabzadə özünün çoxşaxəli yaradıcılığında həyat həqiqətlərinin poetik ifadəsini verə bilmiş, məhz vətəndaşlıq mövqeyinə, milli ruhun

* Gəncə Dövlət Universiteti,Azərbaycan və dünya ədəbiyyatı kafedrasının dosenti, email: yeganesabirhuseynli@gmail.com.

DOI :10.30546/100981.2024.060

təcəssümünə görə yalnız ölkədə deyil, onun hüdudlarından kənarda, keçmiş bütün türk dünyası, keçmiş sovetlər məkanı, Avropa və Amerikada da tanınmışdır.

Əlbəttə, bunu şairin yalnız böyük istedadının mühüm bir tərəfi kimi izah etmək olmaz. Hərçənd bu amillərin də özünəməxsus rolunu və əhəmiyyətini nəzərə almaq lazımdır. O da danılmaz həqiqətdir ki, Azərbaycanda və keçmiş sovetlər birliyində olduğu kimi, dünya miqyasında elə bir ictimai hadisə, azadlıq hərəkatı və milli istiqlal mübarizəsi yoxdur ki, Bəxtiyar Vahabzadənin poetik münasibət və nüfuz dairəsindən kənarda qalmış olsun. Bu nöqteyi-nəzərdən yanaşıldıqda o, milli olduğu qədər də ümumbəşəri bir sənətkardır. Bəxtiyar Vahabzadənin əsərlərinin bir qismi - türk, ingilis, fars, alman, polyak, macar, ispan, fransız – dillərinə tərcümə edilmişdir. Bu günədək şairin Türkiyədə, Amerikada, Almaniyada, Rusiyada, İranda, Iraqda kitablarının dəfələrlə çap edilməsi onun yaradıcılığının coğrafiyasının genişliyini əks etdirmiş olur. Xüsusilə Türkiyədə şairin kitablarının müntəzəm dərc olunması və bu ölkədə böyük şöhrət qazanması Bəxtiyar Vahabzadə yaradıcılığının çoxşaxəliliyindən, milliliyindən irəli gəlir. Şairin Rumıniya Respublikasının mədəniyyət sahəsində ən ali mükafatı hesab olunan "Xidmətlərinə görə" Komandor dərəcəli milli ordeninə, "Ləyaqət" ordeninə, layiq görülməsi də əsərlərinin dünya arenasındakı populyarlığını göstərir. Yeri gəlmişkən qeyd edim ki, Azərbaycanda və dünyada şairin yaradıcılığı ilə bağlı çoxlu məqalələr yazılmış, tədqiqatlar aparılmışdır. Bəxtiyar Vahabzadə yaradıcılığının bu qədər populyarlaşması və sağlığında klassikaya çevrilməsi onun poeziyasının milli və bəşəri xüsusiyyətindən, poetik təfəkkürünün çoxçalarlılığından irəli gəlirdi. Bunu nəzərdə tutan dünya şöhrətli yazıçı Ç. Aytmatov haqlı olaraq yazırdı: "Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətcə millidir. Bu müstəsna dərəcədə zəruri haldır ki, sən övladı olduğun xalqın nitq hissəsində fel olmağı bacarasan, xalqının canlı dil memarlığına öz töhfəni verə biləsən. Bununla yanaşı Vahabzadənin poetik təfəkkür mədəniyyəti daha üstün mahiyyət kəsb edir və millilikdən ümumbəşəri səviyyəyə qalxır" (1, 8).

Bəxtiyar Vahabzadənin poetik yaradıcılığında iki istiqamət, lirik və epik şeir, aparıcı rola malikdir. Demək lazımdır ki, dövrün xarakterindən və poeziyanın inkişaf meyillərindən irəli gələrək şair epik şeirə daha böyük üstünlük verirdi. Bəxtiyar Vahabzadə dövrün mürəkkəb həyat həqiqətlərini, dünyanı və bütün insanlığı narahat edən hadisələri ümumiləşdirərək lirik nümunələri ilə yanaşı epik poeziyanın gücü ilə də qələmə almağa çalışırdı. Şübhəsiz, epik yaradıcılıqda poema janrı irəli çıxırdı. Dünya, eləcə də Azərbaycan poeziyasında tarixən aparıcı janrlardan olan poema XX əsrin 30-cu illərindən başlayaraq yüksələn xətlə inkişaf etmişdir. Universal janr poemanın hadisələri əhatəli, vüsətlə təsvir etməsi, milli-mənəvi, əxlaqi problemləri əks etdirməsi şairin potensial imkanlarını üzə çıxarır. İctimai ziddiyyətlərlə, siyasi kataklizmlərlə dolu bir cəmiyyəti bütün parametrlərilə təsvir etmək üçün poema ən yaxşı vasitələrdən biri olur. Yaradıcılığının ilk mərhələsindən başlayaraq Bəxtiyar Vahabzadə əsərlərində bədiilik meyarına əməl etməklə, dövrün ictimai-siyasi, mənəvi-əxlaqi hadisələrini təsvir etməyə nail olur.

Əsərlərində şairi düşündürən mövzu və problemlər son dərəcə genişdir, konseptualdır, cəmiyyətə ünvanlanmışdır. Burada azadlıq və istiqlal məfkurəsi bütün əzəmət və genişliyi ilə boy göstərir, qəhrəmanları daim haqq-ədalət uğrunda çarpışır, yenilik axtarır. Şairin bütün yaradıcılığı dövründə yazdığı əsərləri yeni bir baxış və münasibət müstəvisində dəyər və qiymətləndirməyi zərurətə çevirir. Müxtəlif həyati problemləri və insani münasibətləri dərin humanizm mövqeyindən ümumiləşdirərək əsas mühakimə və münasibət predmeti kimi müəyyənləşdirir. Şairin əsərləri əslində həyatın və zamanın həqiqətlərini, bəzi hallarda ziddiyyət və təzadlarını dolğun fəlsəfi mühakimələrlə əks etdirməsi baxımından da xüsusi maraq və əhəmiyyət kəsb edir. Bu mənada şairin poemaları üçün mövzu və problematika seçimi də geniş və miqyaslı xarakteri ilə özünəməxsusluq qazanır. Keçmiş ittifaq məkanından, yaxın və uzaq xaricdən, Asiya və Afrika ölkələrindən, qitənin o başından, Amerika həyatından alınan real gerçəkliklərin və həyat həqiqətlərinin yüksək sənətkarlıqla və vətəndaşlıq mövqeyi ilə epik

yaradıcılığı üçün əsas mövzu hədəfi seçilməsi də bu mənada təsadüfi hal hesab oluna bilməz. Belə bir mövzu və problematika müxtəlifliyi həm də şairin dünyada baş verən prosesləri son dərəcə narahat və həyəcanla izlədiyini, bəşəriyyət və insanlıq üçün humanist bir mövqe və yanaşma nümayiş etdirdiyini də əyani şəkildə təsdiqləyir. Bütün bunlar, eləcə də cəmiyyəti düşündürən müxtəlif problemlərə həsr olunan poemalarının əhatə dairəsi, monumentallığı, janr, süjet, kompozisiya və s. baxımından zənginliyi mövzunun aktuallığını şərtləndirən amillərdəndir.

**1."Özümüzü kəsən qılınc".** Bəxtiyar Vahabzadə əsrlər əvvəl yenilməz dövlət kimi tanınan göytürklərin dövlət başçıları haqqında müasir Azərbaycan dramaturgiyasının yeni qələbəsi hesab edilən "Özümüzü kəsən qılınc" əsərini qələmə alır.

Şair nəinki “Özümüzü kəsən qılınc” əsərində, demək olar ki bütün əsərlərində hadisələrə yeni bir baxış və münasibət müstəvisində dəyər və qiymətləndirməyi zərurətə çevirir. Bəxtiyar Vahabzadə müxtəlif həyati problemləri və insani münasibətləri dərin humanizm mövqeyindən ümumiləşdirərək əsas mühakimə və münasibət predmeti kimi müəyyənləşdirir. “Özümüzü kəsən qılınc” əsəri əslində həyatın və zamanın həqiqətlərini, bəzi hallarda ziddiyyət və təzadlarını dolğun fəlsəfi mühakimələrlə əks etdirməsi baxımından da xüsusi maraq və əhəmiyyət kəsb edir.

"Özümüzü kəsən qılınc" əsərində şair, hadisə və süjet planında geniş həyat həqiqətlərinə münasibət bildirir, cəmiyyətdə baş verən hadisələrə fəal müdaxilə nəzərə çarpan yaradıcılıq faktı kimi maraq kəsb edir. Ümumiyyətlə, milli mənliyin dərki və milli mənə qayıdış Bəxtiyar Vahabzadə yaradıcılığının əsas xüsusiyyətlərindəndir. “Özümüzü kəsən qılınc” əsərində əsas dəyər verilən məsələ qəhrəmanların öz elinə, xalqına, vətəninə, mənsub olduqları cəmiyyətə olan münasibətləridir. Əsər qədim türk xalqlarının tarixi keçmişini, zəngin dövlətçilik ənənələrini özündə əks etdirir. Burada türklərin minillik tarixi keçmişindən söz açılsa da, şair minilliklər əvvəl baş verən hadisələrə yeni baxış bucağından yanaşmışdır. Başımıza gələn faciələri və onları doğuran səbəbləri məharətlə açıb göstərmişdir. “Kitabi-Dədə Qorqud” dastanında və Şairin “Özümüzü kəsən qılınc” əsərində Azərbaycan milli mənəviyyatı üçün xarakterik olan vətəndaş obrazı öz əksini tapmışdır. Ədəbiyyatşünas Ramazan Qafarlı yazır ki: “Kitabi-Dədə Qorqud” yeganə əsərdir ki, millətin əlindən zorla alınıb, “həbs edilib”. Onu dilinə alanlar da türmələrdə çürüdülüb” (4, səh.19). Türk xalqının əlindən alınıb “həbs edilən” bu dastana Bəxtiyar Vahabzadənin 1998-ci ildə yenidən müraciət etməsi heç də təsadüfi deyildir. Şair əsərdə Vətən tarixini öyrənməyin vacibliyini nümayiş etdirmişdir. Bəxtiyar Vahabzadə əsəri oxuyan hər bir kəsi türk birliyinə səsləyir. Əsər1450 il bundan əvvəl güclü bir dövlət kimi tanınan göytürklərin dövlət başçıları haqqında yazılmışdır. Bu əsərlə Bəxtiyar Vahabzadə son dərəcə təzadlı konfliktlərin bədii və obrazlı həlli vasitəsi ilə böyük bir tarixi dövrün ibrətamiz inikasını yaratmışdı. Əsərdə müəllifin qələmə aldığı bütün hadisələr oxucunu sonuna qədər dərin bir həyəcan içərisində saxlayır və onu düşünməyə, bu mürəkkəb və çətin hadisələrin həll edilməsi üçün yollar axtarmağa, çıxış yolu tapmağa çağırır. Mənəvi-əxlaqi problemlər də, Bəxtiyar Vahabzadənin bütün yaradıcılıq sahələrini çevrələyən mövzu istiqamətlərindən biridir. Şairin lirik ricətlərlə zəngin poeziyasında da, dramatik kolliziyalarla zəngin dramaturgiyasında da bunun real əlamət və təzahürlərini aydın şəkildə görmək mümkündür. Mövzu və problematika etibarilə rəngarənglik qazanan publisistik düşüncələrində də bir sənətkar kimi Bəxtiyar Vahabzadə bu amala sədaqətlilik nümayiş etdirir. Bu, bir tərəfdən də mənəviyyatı, əxlaqi dəyərləri insanın və xarakterin bütövlüyünə təməl olacaq prinsipial müddəa kimi önəm daşımasına verilən qiymət olaraq anlaşılmalıdır. Şair ən müxtəlif problemlərin həll edilməsində bu amildən bir meyar və vasitə kimi yararlanmağa çalışır, xeyirlə şər qüvvələrin, işıqla zülmətin, haqla nahaqın qarşılaşdığı səhnələrdə ondan bir norma və istinad nöqtəsi kimi istifadə edir.

Belə yaradıcılıq məziyyətləri şairin yaradıcılığının səciyyəvi cəhətlərindən birinə çevrilməsi təbii qanunauyğunluqdan irəli gəlir. Çünki, belə bir prinsipial düşüncə tərzi şairin

yaradıcılıq axtarışlarının ümumi şəkildə mahiyyətinə hopan bir xüsusiyyətdir. Bir sənətkar kimi şairi yalnız insanın mənəvi-əxlaqi dünyası çox vaxt qayğılandıran, həyəcanlandıran və narahat edən hadisə və proseslər də ciddi şəkildə düşündürüb daşındırır. İnsan mənəviyyatı, onun zamanla, ictimai-siyasi münasibətlərlə əlaqə və bağlılığı məsələsi B.Vahabzadənin əsərlərində özünəməxsus cizgilərlə boy göstərən problemlərdəndir. Bu baxımdan milli hiss və düşüncələr, xalq həyatının, adət və ənənəsinin bir istinad və dayaq nöqtəsi kimi müəyyənləşməsi şairin yaradıcılığında diqqətəlayiq məqamlar kimi vurğulana bilər.

**2. Əsərdə tarixilik və müasirlik.** "Özümüzü kəsən qılınc" əsərində xeyir və şər qarşı-qarşıya qoyulur, hər iki tərəfin mübarizəsi böyük bir hadisəyə çevrilir, burada hadisələrin gedişatı həyacan doğurur. Oxucu böyük maraq və səbirsizliklə xeyrin şər üzərində təntənəsini gözləyir. Xalqın tarixi taleyi, bu taleyi özlərində, mübarizələrində əks etdirən insanların xarakteri və əməlləri, nəcib insani xüsusiyyətləri görkəmli şairin dramaturgiyasının əsas fəlsəfi-estetik düşüncələridir. B.Vahabzadə dramaturgiyası mövzu cəhətdən tarixi və müasir həyatla bağlı olan pyeslər silsiləsinə şamil edilə bilər. Burada tarixilik və müasirlik vəhdət halında çıxış edir. Bu da böyük şairimizin milli dramaturgiyanın zəngin ənənələrini yaşatmaq əzmini göstərir. Əsər Bəxtiyar Vahabzadənin türk birliyinə səsləyən ideyalarının çağırışıdır. Vahabzadənin kamil cəhətlərindən biri də odur ki, şair əsərlərində tarixi müasirlik qədər yaşada bilir. Keçmişə görə əzab çəkmək, ona bu günün gözüylə baxmaq- Bəxtiyarın mövzu dairəsinin genişliyindən, mürəkkəbliyindən xəbər verir.

B.Vahabzadənin "Özümüzü kəsən qılınc" əsəri tarixi yaddaşımıza müraciət edərək oxucunu milli-mənəvi kimliyimiz və dəyərlərimiz üzərində düşünməyə vadar edir. Bu əsər müasir Azərbaycan vətəndaşını milli müstəqillik və bütövlük idealları ətrafında səfərbər etmək ideyası üzərində qurulub. Dünyanın təzadları, bir-birini təkzib edən ictimai-siyasi hadisələr, real gerçəkliklər də Bəxtiyar Vahabzadənin lirikasını, o cümlədən epik yaradıcılığını, dramatik kolliziyalarla, qarşıdurma və ziddiyyətlərlə yadda qalan dramaturgiyasını, vətəndaşlıq qayə və yanğısı ilə qələmə alınan publisistik düşüncələrini ciddi narahat edən mövzu və problemlərə çevrilməsi heç də təsadüfi deyil. Dünyada baş verən dəyişiklikləri iti fəhmlə və intiusiya ilə qavramaq cəhdi onun qəhrəmanına xas olan başlıca əlamətlərdəndir. Məsələn, vaxtilə Azərbaycan cəmiyyətində qəliblənmiş standartları, ətalət və gözləmə mövqeyini şair həssaslıqla duyur və ona qarşı çıxaraq xalqı dəyişən dövrün və zamanın sınaqlarından dözüm və mətanətlə, ağlın və milli düşüncənin köməyi ilə çıxmağa çağırırdı. Yüksək vətəndaşlıq qayəsi, dünyanın və bəşəriyyətin bu günü və gələcək taleyi üçün nigarançılıq hissləri Bəxtiyar Vahabzadənin əsərlərində milli sərhədləri aşan mahiyyəti barədə geniş təsəvvür yaradır. Bu doğru qənaətdir ki, "Bəxtiyar Vahabzadənin narahatlığı – milli-ictimai məsuliyyətin təzahürüdür və buna fərdi-psixoloji əlamət kimi baxanlar tamamilə yanılırlar..." (1, 9).

Bəxtiyar Vahabzadə bütün yaradıcılığı boyu sərt həyat həqiqətlərini, ictimai-məfkurəvi mahiyyəti ilə seçilən mətləbləri özünəməxsus kəskinliklə, gərgin dramatizmlə epik təhkiyənin münasibət müstəvisinə çıxarmağa üstünlük verir. Belə bir yaradıcılıq xüsusiyyəti şairin bütün əsərlərinə sirayət edən mühüm yaradıcılıq məziyyətləri kimi üzə çıxır. Tarixi sənədlər əsasında yazılan, 2 hissədən və 12 şəkildən ibarət olan pyesdə tarixi şəxsiyyət olan Gur Şadın Birinci Göytürk dövlətinin istiqlalı uğrunda mübarizəsindən söz açılır. "Özümüzü kəsən qılınc" ("Göytürklər") faciəsində Bumin Xaqanla onun qardaşı İstemi Xaqanın hakimiyyətlərindən sonra zəifləmiş, dağılmaq təhlükəsi qarşısında qalmış Göytürklər dövlətinin ikinci dəfə yüksəlişi diqqət hədəfində olur.

Şair göstərir ki, Göytürk dövləti təhlükə qarşısındadır. Əsərdə köhnə düşmənləri çinlilər qohumluq əlaqəsindən istifadə edərək, Çulu xaqanın çinli zövcəsinin əli ilə Göytürk dövlətini içindən parçalayıb dağıtmaq üçün min hiyləyə əl atırlar (tarixə nəzər saldıqda görərik ki, yenilməz türk birliyi həmişə ocağına gətirdiyi qadınlar tərəfindən pozulub). Belə bir şəraitdə çox təəssüflər olsun ki, bu ağır, dövlətin müqəddəratı həll olunan bir zamanda göytürklər yumruq kimi bir olub, vətəni, dövləti göz bəbəyi kimi qorumaq əvəzinə, saray əhli arasında

parçalanma baş verir, ölkənin müstəqilliyi, türkün şərəfi, ləyaqəti tamamilə unudulur. Yadların böyüklüyünə, ucalığına həmişə həsrətlə baxan türk özündən uzaqlaşır və özünə yadlaşan türk getdikcə cılızlaşır, kiçilir və asanlıqla düşmən tərəfindən məğlubiyyətə uğradılır. Şair bir daha sübut edir ki, türk özünə qayıdanda böyük və qüdrətli olur, dövlət müstəqilliyini qoruyub saxlaya bilir. Əslində Bəxtiyar Vahabzadə tarixə müraciət etməklə, bu günümüzlə səsləşən məqamlara, müstəqillik uğrunda çarpışmalara əngəl olan yaxın tarixin hadisələrinə də ayna tutur.. Doğma qardaşı Çulu Xaqanın meyidi üstündə hakimiyyətə gələn Qara Xaqan xalqa arxalanmayan bir hakimiyyətin zəif, gücsüz olmasının fərqində deyil. Məğlubiyyətlərə son qoyan Gur Şad isə Bumin və İstemi xaqanların qurduqları səltənətin yolunda sıravi döyüşçü kimi vuruşmağı xaqanlıqdan üstün tutur. Əsərin əsas ideyası da elə özümüzü kəsən gözəgörünməz qılıncların kimlərin əlində olduğunu üzə çıxarmaqdır. Göytürk dövlətini dağıtmaq üçün Çin imperiyasının əl atdığı üsullar qılıncdan daha təhlükəli və kəsərlidir. Bunun məhz fitnəkarlıq, hiylə, riyakarlıq, xəyanət, siyasətdən ibarət olması pyesdən də, yaxın tariximizin hadisələrindən də bizə yaxşı bəllidir. Millətin qanını, dinini, dilini, əlifbasını dəyişməklə, düşüncəsini, mədəniyyətini dəyişmək, onu özünə yadlaşdırmaq bu günümüzlə çox səsləşir.

“Özümüzü kəsən qılımc” əsərində Bəxtiyar Vahabzadə Azərbaycan cəmiyyətinin olduqca aktual mənəvi – psixoloji problemlərini qələmə alır. Tarixə müraciət B.Vahabzadə üçün həmişə öndə olan məsələlərdən olmuşdur. Əslində “Özümüzü kəsən qılımc” əsərində qaldırılan problemlər Dədə Qorqud dövründən üzü bu yana şairin yaşadığı dövrün, zamanın problemidir, şair tarixə bu günün gözü ilə baxır, müasir insanın dünyayabaxışı ilə səciyyələndirir. Qeyd etməkdə haqlı olarıq ki, əsərə şair M. F. Axundzadənin verdiyi “resept” ilə yanaşmışdır. Şübhəsiz ki, keçmiş Sovetlər Birliyində gedən ictimai-siyasi proseslər kimi, bütün dünya miqyasında baş verən bir çox səciyyəvi hadisələr də B.Vahabzadənin ciddi və həyəcanla izlədiyi problem məsələlər sırasına daxil idi. Bəxtiyar Vahabzadə Türkiyədə nəşr olunan kitabına yazdığı “Qızım, sənə deyirəm gəlinim, sən eşit” adlı ön sözdə qələmə alır ki: “On doqquzuncu yüz ildə yaşamış böyük ədibimiz Mirzə Fətəli Axundzadə demiş ki, əgər mövcud quruluşu açıq tənqid edə bilmirsənsə, zaman və məkanı dəyişdir, ürək sözünü yaz, anlayan anlayacaq. Mən uzun illər böyük ədibimizin bu məşhur resepti əsasında yazmış, totalitar sistemə bu yolla öz etirazımı bildirmişəm” (3, 485). Bəzən ciddi senzura nəzarəti şəraitində bu məsələləri olduğu kimi vermək çətinliyi ilə üzləşməsinə baxmayaraq, B.Vahabzadə əsərlərində təsvir edilən hadisələrin coğrafiyasını başqa ərazilərə köçürməklə , ilini neçə yüz illər arxaya çəkməklə özünün dediyi kimi, vəziyyətdən çıxır, gizli yollarla, işarə və rəmzlərlə oxşar situasiyaları elə öz yaşadığı “xalqlar həbsxanası”nda təsvir etməyə müvəffəq olurdu.

Yuxarıda qeyd etdiyimiz kimi belə əsərlərdən biri də “Özümüzü kəsən qılımc”dır. Yüz illər bundan əvvəl bir tarixə işıq salan bu əsər bütövlükdə müasir milli keçmişimizin möhtəşəm bir abidəsi kimi həllini taparaq, çağdaş mədəniyyətimizin bir parçasına çevrilmişdir. Tarixi şəxsiyyətlərə bədii-tarixi münasibət, tarixin qaranlıq səhifələrinin yeni nəslə yenidən çatdırılması və tanıdılıb öyrədilməsi təqdirəlayiq hadisələrdəndir. Azərbaycan tarixinin yeni səhifələrinin yazıldığı bir zamanda Bəxtiyar Vahabzadə bu əsəri ilə tarixə, soykökümüzə qayıdış etdi.

“Özümüzü kəsən qılınc” pyesinin ilk tamaşasında iştirak edən ümummilli liderimiz Heydər Əliyev əsərə və tamaşaya yüksək qiymət vermişdi: “Tariximizi araşdırıb bu gün üçün əhəmiyyətli, dəyərli olan səhifələrini indiki və gələcək nəsillərə çatdırmağın özü xalq, millət, tarix və gələcək nəsillər qarşısında böyük xidmətdir. Bu xidmətə görə mən Bəxtiyar Vahabzadəyə xüsusi təşəkkür edirəm və hesab edirəm ki, millətimiz, xalqımız, cəmiyyətimiz də bu təşəkkür sözlərimə qoşulacaqlar və daim ona minnətdar olacaqlar”(2). “Özümüzü kəsən qılınc” əsarətə, yadelli işğalçılara qarşı mübarizə aparan xalqın istək və arzularının təcəssümüdür. Əqidə bütövlüyü, vətənpərvərlik, mənəvi yenilməzlik əsərdə olduqca aktual və

müasir planda verilmişdir. Əsərdə cərəyan edən hadisələr müasir dövrümüzlə səsləşərək 1988-ci ildən üzü bəri xalqımızın qarşılaşdığı fəlakət və faciələri, xalqımıza, torpağımıza edilən haqsızlıqları, erməni təcavüzünü göz önünə gətir.

**Nəticə**

Böyük söz ustadı Bəxtiyar Vahabzadə xalqımızın yüz illər boyu təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunması, adət-ənənələrimizin yaşadılması naminə yorulmadan yazıb, yaradıb. Şair azərbaycançılıq məfkurəsinə dərindən bağlı olan və özünüdərkə çağıran çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına töhfələr verib. Bəxtiyar Vahabzadə sözün əsl mənasında son nəfəsinə qədər vətənin, əqidənin və bədii sözün əsgəri olub. Şairin yaradıcılığının əsasını xalqın azadlığı, müstəqil dövlətçilik, vətəni qorumaq, tarixə ehtiram, gələcəyə inam təşkil edir. Qılıncdan da kəsərli olan fəlsəfi dramatik pyesi "Özümüzü kəsən qılınc" əsəri bu gün ədəbiyyatımızın zirvəsində dayanan əsərlərdəndir.

Bəxtiyar Vahabzadənin ümumi yaradıcılığı üçün elə dəyişməz və əvəzolunmaz dəyərlər var ki, onu şairin bütün yaradıcılığı üçün aparıcı mövzu və ideya istiqaməti hesab etmək olar. Bu, heç şübhəsiz ki, milli azadlıq və istiqlal ideyasının tərənnümüdür. Belə bir yaradıcılıq qayəsi Bəxtiyar Vahabzadəni sərt qadağa və rejim şəraitində öz məqsədindən çəkindirə bilməmiş, şair öz xalqının azadlığı və tarixi taleyi ilə bağlı fikirləri bəzən iz azdırmaq məqsədi ilə ayrı-ayrı coğrafi ərazilərin nümunəsində təqdim etmək məcburiyyətində qalmışdır. Bu baxımdan sözün həqiqi mənasında Bəxtiyar Vahabzadə istiqlal şairidir. İstiqlal mücadiləsinin bütün tarixi dövrləri və mərhələləri şairin yaradıcılığından qırmızı xətt kimi keçir.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**

**1.** Aytmatov Ç. Yaradıbdır inam məni, mən inamın övladıyam (Ön söz) // Vahabzadə B. "Axı dünya fırlanır". Bakı: Yszıçı, 1987, s. 3-10.( 208 s.)

**2.** Cəfərov N. Bəxtiyar Vahabzadə. Bakı: Azərbaycan, 1996, 80 s.

**3.** Milli birliyi, dövlətçiliyimizi qorumağa səsləyən əsər. /Xalq qəzeti. Bakı: 14 aprel 1998, № 96

**4.** Vahabzadə Bəxtiyar Əsərləri: 11 cilddə, IX c., (Məqalələr, ədəbiyyat və sənət), Bakı: Azərbaycan, 2005, 784 s.

**5.** Vahabzadə Bəxtiyar Əsərləri, 12 cilddə, Bakı-2009, "Elm" nəşriyyatı, IX cild,828 səh.